*Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 noyabr 2016-cı il № 88 (2103) Qiyməti 25 qəpik


# Konstitusiya - dövlətin əsas qanunu

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*...Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya müasir dünyanın sivil dəyərləri və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmışdır.*

*Müasir Azərbaycan tarixinin təxminən son 40 ili böyük öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş Ümummilli Liderimiz həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin.*



Ötən yüzilliyin sonlarında yaranmış tarixi şərait nəticəsində yenidən müstəqilliyinə qovuşan Azərbaycan bir sıra ağır xarici və daxili təhdidlərlə üzləşdi. Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları, elan edilməmiş müharibəsi Azərbaycanın müstəqilliyini sual altında qoymuşdu. O zaman ölkəmizdə hakimiyyət başına gəlmiş siyasi qüvvələrin səriştəsizliyi yaranmış təhlükələrdən dövlətçiliyimizi xilas etməkdə sadəcə aciz idi.

Bir-birinin ardınca düşdüyü bəlalar Azərbaycan xalqını öz nicatını başqa şəxslərdə deyil, müdrik rəhbər, siyasətin qrossmeysteri adlandırılan dünya miqyaslı dövlət adamı Heydər Əliyevdə axtarmağa vadar etdi. Xalqın təkidli tələbilə Ulu Öndər siyasi hakimiyyətə qayıtdı. Zəngin hakimiyyət təcrübəsi, beynəlxalq və regional siyasi prosesləri nəzəri cəhətdən düzgün qiymətləndirmək və mümkün optimal qərar qəbul etmək bacarığına, möhkəm xarakterə və qətiyyətli iradəyə malik, xalqı vahid məqsəd ətrafında birləşdirməyə qadir olan Heydər Əliyev yetərincə müşkül və taleyüklü bir vəzifəni çiyinlərinə götürdü.

Həmin keşməkeşli illərdə Ulu Öndərin rəhbərliyilə Azərbaycan xaosdan azad olmağı bacardı. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağı bacardı və respublikamızın inkişafı üçün zəmin yaratdı. Bundan sonra böyük çətinlikləri dəf edən Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin kontraktı" adını almış neft müqavilələri imzalandı. Dövlətimiz faktiki olaraq bununla sabit inkişaf yoluna qədəm qoydu.

Xalqımızın Ümummilli Lideri həm də Azərbaycanda müstəqil hüquqi dövlətin yaradıcısı və qurucusu kimi tarixdə adını əbədiləşdirib. Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin nəticəsidir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya qanununu qəbul etmişdi. Ancaq bu sənəd Azərbaycan vətəndaşlarının real hüquq və vəzifələrini əks etdirmirdi. Ölkəmiz üçün yaranmış yeni siyasi, ictimai və iqtisadi münasibətlər sistemində dərin hüquqi islahatlara, tamamilə yeni mütərəqqi bir konstitusiyanın qəbuluna ehtiyac vardı. Əslində, məlum olduğu kimi, Konstitusiya ölkə qanunvericiliyi üçün əsas baza kimi çıxış edir. Ölkədə ictimai quruluşun əsaslarını, insan hüquq və azadlıqlarını, dövlət hakimiyyət orqanlarının sistemini, yerli özünüidarəetmə strukturlarını və hüquqi mexanizmləri tənzimləyən yeni Əsas Qanun qəbul edilmədən demokratik inkişafa və hüquqi dövlət quruculuğuna nail olmaq mümkün deyildi.

1994-cü ilin iyulunda Milli Məclis tərəfindən Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan komissiya yaradıldı. Bu komissiyaya Azərbaycan Respublikasının yeni Konstitusiyası layihəsini hazırlamaq tapşırığı verildi. Böyük siyasi idarəçilik təcrübəsinə malik dövlət başçısı o zaman yeni hüquqi sənədin mahiyyəti barədə fikirlərini belə ifadə etmişdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Ona görə də üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox çətindir... Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır".

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri Niderlandın Azərbaycandakı səfiri ilə görüşüb

<u>*Noyabrın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Niderland Krallığının ölkəmizdəki səfiri cənab Onno Kervers ilə görüşüb.*</u>



Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, hərbi sahədə həm ikitərəfli, həm də NATO çərçivəsində Azərbaycan ilə Niderland arasında əməkdaşlıq, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, eləcə də hərbi təhsil, treninq, təcrübə mübadiləsi və digər istiqamətlər üzrə tərəfdaşlıq məsələləri, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

Həm ikitərəfli, həm də NATO çərçivəsində hərbi sahədə ölkələrimiz arasında əlaqələri yüksək qiymətləndirən səfir Əfqanıstanda həyata keçirilən missiya tərkibində Azərbaycan sülhməramlılarının beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə və ümumilikdə uğurlu əməkdaşlığa görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

NATO-nun Varşava şəhərində keçirilən son sammitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Alyansın mövqeyini xatırladan səfir vurğulayıb ki, Niderland da NATO və digər beynəlxalq qurumlar kimi Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir.

Cənab O.Kervers münaqişənin yalnız sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib.

Müdafiə naziri səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı işinə töhfə verəcəyinə əminliyini ifadə edərək ona işlərində uğurlar arzulayıb.

Diplomat isə öz növbəsində ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb və əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
foto
çavuş
Vüsal HƏMİDOVUNDUR**

# Konstitusiya - dövlətin əsas qanunu

**(Əvvəli 1-ci səhifədə)**

Konstitusiya komissiyası demokratik ölkələrin hüquqi təcrübəsini ətraflı öyrənərək ölkəmizin Əsas Qanununun layihəsini hazırladı. Dövlət başçısının böyük önəm verdiyi sənəd geniş ictimaiyyətin müzakirəsinə təqdim olundu, vətəndaşlarının irəli sürdüyü vacib və dəyərli təklif və qeydlər layihədə öz əksini tapdı. Bundan sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) müstəqil Azərbaycan dövlətinin bəşəri və milli dəyərləri özündə ehtiva edən yeni Konstitusiyası qəbul edildi.

Beynəlxalq standartlara əsaslanan Əsas Qanun insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etdi, ölkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm zəmin oldu. Xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplərin əksini tapdığı yeni Konstitusiyamızın 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan olunurdu. İnsan şəxsiyyətinin toxunulmazlığı, onun həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmini, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir.

Böyük Öndərin rəhbərliyilə hazırlanaraq qəbul edilmiş Konstitusiyada dövlətimizin təhlükəsizliyinin əsas qarantı olan Silahlı Qüvvələrlə də bağlı müddəalar öz əksini tapıb.

Konstitusiyanın 9-cu maddəsinin 1-ci bəndində göstərilir ki, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır. Həmin maddənin 3-cü bəndində isə deyilir: Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Bir sıra özəlliklər nəzərə alınmaqla Azərbaycan vətəndaşları olaraq hərbi qulluqçuların da onlara verilmiş vətəndaş hüquq və azadlıqlarından istifadə etməsi Konstitusiya ilə müəyyən edilib. Müdafiə Nazirliyinin timsalında dövlət zabit, gizir və əsgərlərə bu hüquqlardan istifadə etmək üçün şərait yaradıb. Eyni zamanda dövlətin Əsas Qanununda Vətənin müdafiəsilə bağlı vətəndaşların vəzifə borcları da öz əksini tapıb. Ali sənədin 76-cı maddəsinin 1-ci bəndində qeyd edilib: Vətəni müdafiə hər bir vətəndaşın borcudur.

Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən olmaqla, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətidir. Ümummilli Liderin rəhbərlik etdiyi illər, əslində, ölkəmiz üçün demokratik dövlət quruculuğu istiqamətində həlledici illər oldu, yəni Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, respublikamız faktiki olaraq dünya birliyinə qovuşdu.

Ulu öndər Heydər Əliyev Əsas Qanunun qəbul edilməsilə bağlı söylədiyi fikirlər aktuallığı ilə diqqəti cəlb edir: "Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Demokratik dəyərlərə əsaslanan Konstitusiya ölkəmizin bütün sahələrində gələcək inkişaf prioritetlərini müəyyənləşdirdi, siyasi sistem möhkəmləndirildi. Vətənimizdə həyata keçirilən hüquqi və siyasi islahatlar, bunların iqtisadi islahatlarla paralel keçirilməsi ölkəmizin tərəqqisi üçün Böyük Öndərin rəhbərliyilə yaradılmış möhkəm platformaya çevrildi. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafını müəyyən etdi.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi islahatlar davam etdirilir və bütün bunlar, əslində, ölkəmizin tərəqqisi naminə həyata keçirilir. Bu məqsədlə 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlar zamanı irəli sürülən əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət edirdi.

Sonuncu ümumxalq səsverməsinin nəticələrini dəyərləndirən Prezident İlham Əliyev referendumun ölkəmizin gələcək inkişafını müəyyən etdiyini bildirib: "Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə "hə" deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Mən son 13 il ərzində çalışmışam ki, bu yüksək etimadı öz işimlə, fəaliyyətimlə doğruldum. Şadam ki, bu gün Azərbaycan, doğrudan da, dünyada seçilən ölkələrdəndir. Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuz artır, ordu quruculuğu uğurla gedir".

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Aparılan hüquqi islahatlar, yeni və mütərəqqi qanunvericilik aktlarının qəbul edilməsi siyasi, iqtisadi, sosial və mədəni sahələrdə inkişaf üçün zəmin rolunu oynayır.

Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Son on il ərzində Azərbaycanda baş vermiş dəyişikliklərə nəzər yetirsək görərik ki, bu müddət ərzində həyatımızın bütün sahələrində çox böyük nailiyyətlər qazanılıb. Hər şeydən öncə iqtisadiyyatda qazanılmış uğurlar digər sferaların inkişafına böyük təsir göstərib. O cümlədən hərbi sahədə atılmış önəmli addımlar nəticəsində ordumuz Cənubi Qafqazın ən güclü müdafiə strukturuna çevrilib, Silahlı Qüvvələrimizin təminat və təchizatında böyük irəliləyiş baş verib.

2008-ci ildə Azərbaycan özünün rabitə peykinin orbitə çıxarılması haqqında qərar qəbul etdi. Beş il sonra Azərbaycanın ilk süni peyki orbitə çıxarıldı. Bu isə o demək idi ki, Azərbaycan kosmik ölkələr sırasına daxil olub.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərdən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini əldə edib. 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi.

Prezident İlham Əliyev dövlətçiliyimizin və müstəqilliyimizin qorunması üçün böyük önəm kəsb edən ordu quruculuğunu da daim diqqət mərkəzində saxlayır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi, eyni zamanda ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir.

Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Silahlı Qvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata malikdir, yüksək intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur.

Silahlı Qüvvələrimizin gücləndirilməsi, əslində, Azərbaycanın gücləndirilməsi deməkdir. Bu gün Azərbaycan dövləti və onun Silahlı Qüvvələri Böyük Öndərin vaxtilə müəyyən etdiyi bu inkişaf yolu ilə irəliləyir və daim öz potensialını artırır.

Bütün bunlar göstərir ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyilə mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılır, iqtisadi, siyasi, hərbi sahədə böyük nailiyyətlər əldə edilib, milli və bəşəri dəyərlərə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu müvəffəqiyyətlə davam etdirilir.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

# Bu günümüz və gələcəyimiz üçün hüquqi təminat

*Ötən əsrin sonlarında Azərbaycan xalqı tarixi müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətin və dövlət quruculuğunun dünyəvi dəyərlər əsasında inkişaf etdirilməsi üçün mühüm hüquqi sənəd olan Konstitusiyanın qəbul edilməsinə zərurət yaranmışdı. Konstitusiya dövlətin taleyində müstəsna rola malik olan əsas qanunlar toplusudur və cəmiyyətdə insanların müasir səviyyədə yaşayışını təmin etmək baxımından böyük əhəmiyyət kəsb edir.*




Azərbaycan 1991-ci ilin oktyabrında "Müstəqillik haqqında Aktı" qəbul etdikdən sonra tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Müstəqil dövlətçiliyin əsas atributlarının yaradılmasına baxmayaraq milli dəyərlərimizi əks etdirən yeni Konstitusiyanın qəbul edilməsi vacib bir məsələ kimi qarşıda dururdu. Mühüm hüquqi sənəd olan Əsas Qanunun hazırlanması isə, şübhəsiz ki, dövlət idarəçiliyində zəngin təcrübəyə malik olan siyasət xadimlərinə etibar oluna bilərdi. Məhz ulu öndərimiz Heydər Əliyev müdrikliyi və uzaqgörənliyi ilə bu vacib məsələni həll etmək bacarığına maik idi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının yaradılması təşəbbüsü görkəmli dövlət xadimi tərəfindən irəli sürüldü. Beləliklə, müəllifi və təşkilatçısı ümummilli liderimiz Heydər Əliyevin olduğu və mahiyyətcə Sovet dövrünün Konstitusiyalarından tamamilə fərqli olan ilk milli qanunlar toplumuz layihə şəklində hazırlanaraq xalqımızın geniş müzakirəsinə verildi. Nəhayət, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi.

Əsas Qanunumuzun qəbul edilməsini siyasi əhəmiyyətə malik hadisə adlandıran böyük öndərimiz Heydər Əliyev bildirirdi ki, Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövlətini miras qoyacaq.

Cəmiyyətimizin Əsas Qanunu olan Konstitusiyanın kifayət qədər demokratik tələblərə cavab verməsi Ümummilli Liderimizin rəhbərliyi və təşkilatçılığı ilə müstəqil Azərbaycan dövlətində aparılmış hüquqi islahatlardan irəli gəlir. Bildiyimiz kimi, dahi rəhbər 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizin bütün sahələrində böyük gələcəyə hesablanmış mütərəqqi islahatlara başladı. Məhz bu islahatların nəticəsi olaraq müasir Azərbaycan dövlətinin bünövrəsi yaradılıb. Konstitusiyamızı maddə-maddə oxuyub öyrəndikcə bir həqiqət aydın olur ki, burada insan hüquq və azadlıqları geniş şəkildə təsbit olunub. Maddələrin əksəriyyəti şəxsiyyətin qorunmasına, toxunulmazlığına, cəmiyyətdə söz və fikir azadlıqlarına həsr olunub. Bu isə, əlbəttə, birmənalı olaraq onu deməyə əsas verir ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və bütün qanunlar xalqın iradəsini əks etdirir.

Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü də dünyəvi dəyərlər və sivil ölkələrin təcrübəsi əsasında təsbit olunub. Bu mövzuda əvvəlcə onu qeyd etməyi vacib sayıram ki, ölkəmizdə hakimiyyətin demokratik əsaslarla idarə edilməsi, məsələn, şəffaf seçkilərin keçirilməsi, qəbul edilən qanun və qərarların xalqın iradəsinə hesablanması kimi vacib məsələlər Ulu Öndərimizin rəhbərliyi dövründə daim diqqət mərkəzində idi və bu gün də bu ənənə qorunub inkişaf etdirilir. Prezident İlham Əliyev dövlət idarəçiliyi təcrübəsində daim müasir ənənələrə əsaslanır və hər bir azərbaycanlının təhlükəsizliyinin əsas qarantı olaraq vətəndaşlarımızın hüquq və azadlıqlarının təmin edilməsinə, ən başlıcası, dövlətin idarə edilməsində xalqın milli maraqlarının qorunmasına ciddi önəm verir. Təkcə bir faktı qeyd edim ki, aprel döyüşlərindən sonra Azərbaycan Prezidenti öz xanımı ilə cəbhəyanı kəndlərə gəldi, əhalinin təhlükəsizliyi ilə yerindəcə maraqlandı. Həmin günlərdə də bu kəndlər düşmən tərəfindən artilleriya atəşinə məruz qalırdı. Bununla da cənab Prezidentimiz həyatını təhlükə qarşısında qoyaraq hər bir ölkə vətəndaşına dəstək olduğunu əyani şəkildə sübut etdi.

Vətənimizin müdafiəsinin etibarlı təmin edilməsi, dövlətin əsas dayaqlarından biri kimi orduya diqqət göstərilməsi də Konstitusiyamızın müvafiq maddələrində öz əksini tapıb. "Vətəndaşların əsas vəzifələri" bölməsində göstərilir ki, Vətənin müdafiəsində dayanmaq və onu hərbi müdaxilələrdən qorumaq hər bir ölkə vətəndaşının konstitusion borcudur.

Dövlətçiliyin formalaşmasında əsas əhəmiyyət kəsb edən hakimiyyət bölgüsü prinsipləri də Azərbaycan Respublikasının Konstitusiyasında geniş əksini tapıb. Müvafiq maddələrdə göstərilir ki, respublikamızda icra hakimiyyəti Prezidentə, qanunvericilik hüququ parlamentə və məhkəmə hakimiyyəti məhkəmələrə aiddir. Bu cür hakimiyyət bölgüsü, əlbəttə, beynəlxalq hüquqi təcrübəyə əsaslanır və dövlətin idarə edilməsinə möhkəm zəmin yaradır. Qeyd etməyi lazım bilirəm ki, istər Ümummilli Liderimizin hakimiyyəti illərində, istərsə də müasir dövrümüzdə ölkədə məqsədyönlü məhkəmə-hüquq islahatları həyata keçirilib.

Bu il sentyabrın 26-da ümumxalq referendumu yolu ilə Konstitusiyanın bəzi maddələrinə edilən dəyişikliklər də Azərbaycanın sivil və demokratik tələblər səviyyəsində inkişafını tənzimləmək üçün atılan vacib addımdır.

Silahlı Qüvvələrin yaradılması, ölkədə qanunla nəzərdə tutulmuş silahlı birləşmələrin fəaliyyəti də Konstitusiyada ətraflı təsbit olunur. "Dövlətin əsasları" fəslinin 9-cu maddəsi məhz bu mövzuya həsr edilir. Burada göstərilir ki, dövlətimiz öz təhlükəsizliyini təmin etmək üçün Silahlı Qüvvələr yaradır. Həmçinin bu maddədə Azərbaycan dövlətinin sülhsevər mənafeyi aşağıdakı kimi izah olunur: "Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münasibətlərin həll üsulu kimi müharibəni rədd edir".

Azərbaycan Silahlı Qüvvələri işğalçı, qəsbkar ordu deyil. Dövlət başçımız İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ordu quruculuğunu inkişaf etdirməkdə əsas məqsədimiz yalnız ölkənin ərazi bütövlüyünü təmin etməkdir.

Ordumuzun sıralarında xidmət edən şəxsi heyətin əsas vəzifələrindən biri də Konstitusiyamızı mükəmməl öyrənmək və onun prinsiplərinə layiqincə əməl etməkdir. Şübhəsiz, qanunların yerlərdə yetərincə təbliğ edilməsi həm hərbi bölmələrdə nizam-intizamı gücləndirir, həm də şəxsi heyətə qanunvericiliyin tələblərinə düzgün riayət etməyi aşılayır. Bu isə ümumilikdə orduda döyüş tapşırığının yerinə yetirilməsində şəxsi məsuliyyət hissini daha da artırır.

**Qabil SADAYEV,**
**Tərtər Hərbi Məhkəməsinin sədri**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***11 noyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 27 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində, Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Qaraqaşlı, Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.



# Qələbəyə inam

*Yüksək döyüş hazırlığına malik olmaq üçün mükəmməl təlim keçmək lazımdı. Təqdirəlayiq haldır ki, ordumuzun bütün bölmələrində əsgərlərlə fərdi və qrup halında dərslər keçirilir. Bu məşğələlər yüksək ixtisaslı peşəkar zabitlər tərəfindən aparılır. Baxmayaraq ki, ordumuzun bir hissəsi düşmənlə təmas xəttində yerləşir, onlar Müdafiə Nazirliyi rəhbərliyinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun taktiki, atəş, fiziki və başqa hazırlıqları ilə ciddi məşğul olurlar.*

Cəbhə bölgəsində həmsöhbət olduğum zabit Süleyman Vəliyev deyir ki, düşmənlə təmas xəttində döyüş növbəsi aparan bölmələr yüksək döyüş hazırlığına malikdir. Onlar döyüş atışlı çöl-səhra təlimləri keçib, belə təlimlərdə təcrübə qazanırlar. Hücum və müdafiənin nə olduğunu təkcə nəzəri biliklərlə deyil, həm də təlimlərdə praktik olaraq öyrənirlər.

Zabit əlavə etdi ki, onlar müdafiədə dayanmaqla şəxsi heyəti təlim planına əsasən nəzəri və praktiki məşğələlərə cəlb edirlər. Ön xətt bölmələrində davamlı müşahidə əsaslı olsa da, döyüşçülərə ixtisas bilik və vərdişlərini vaxtaşırı təkrarlamaq təcrübəni artırır.

Aprel döyüşlərinin iştirakçısı olmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Seymur İsmayılov müsahibimdir. Əsgər ilk görünüşdən əsl döyüşçü təəssüratı oyadır. Əslən Goranboy rayonundan olan Seymur yiyələndiyi ixtisası öyrənsə də, hələ peşəkarlığını artırmaq üçün çox çalışmalı olduğunu dedi. Döyüşlərdən söz düşəndə Seymur dedi:

- Təlimin nə qədər əhəmiyyətli olduğunu biz döyüş zamanı gördük. Snayper kimi üzərimə düşən tapşırığı yerinə yetirərkən öncədən qazandığım biliklər köməyimə çatdı. Səngərdə, açıq və müxtəlif ərazilərdə mövqe tutmaqla döyüşmək peşəkarlıq tələb edirdi. Yaxşı ki, bu vərdişləri döyüş öncəsi qazanmışdım. İndi də silahdaşlarıma məşğələ və təlimin nə qədər əhəmiyyətli olduğunu izah edirəm.

Əsgər Seymur İsmayılov həm də erməni işğalçılarının başladığı Qarabağ müharibəsindən əziyyət çəkən cəbhəyanı kəndlərdən birində doğulub boya-başa çatıb. Özünü dərk edəndən Zeyvə kəndinin yuxarı hissəsində güllə səsi eşidib. Hələ kiçik yaşlarından Vətəni qoruyan oğullarımızın arasında özünü hiss edib. Seymur bu gün öz həyatından, seçdiyi peşədən son dərəcə məmnundur. Fəxr edir ki, əldə silah doğma yurdunu qoruyur.

Zabit Süleyman Vəliyev hər zaman əsgərlərin döyüş və mənəvi hazırlığına ciddi önəm verdiyini bildirdi. Aprel döyüşlərində bölmələrimizin uğurlu hərbi əməliyyatlarının kökündə məhz mükəmməl təlimlərin dayandığını söylədi. Ona görə də şəxsi heyətin istər ön, istərsə də arxa cəbhədə olmasından asılı olmayaraq, onların döyüş hazırlığına diqqət yetirilir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi tibb mütəxəssislərinin işçi görüşü keçirilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında cari il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, noyabrın 9-dan 11-dək Bakıda hərbi tibb mütəxəssislərinin işçi görüşü keçirilib.*



Görüş çərçivəsində noyabrın 10-da Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev Gürcüstan Silahlı Qüvvələrinin Tibb İdarəsinin rəisi tibb xidməti polkovniki Medea Betaşvili və tibb taborunun komandiri tibb xidməti mayoru David Çabadze ilə görüşüb.

İşçi görüşdə Hərbi Tibb Xidmətləri üzrə birgə fəaliyyətlər planının hazırlanması ilə bağlı müzakirələr, eləcə də təcrübə və fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar Silahlı Qüvvələrin Baş Klinik Hospitalını ziyarət edərək bölmə və şöbələrdə yaradılmış şəraitlə, eləcə də müasir tibbi avadanlıqla təchiz edilmiş müalicə korpusları ilə tanış olublar. Bundan əlavə, onlar Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini də ziyarət ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, Tərtər şəhəri istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində noyabrın 10-da keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Xristo Xristov və Jiri Aberle keçiriblər.

# Azərbaycandakı xarici dövlətlərin hərbi attaşeləri hərbi hissəni ziyarət ediblər



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün noyabrın 8-də Hərbi Dəniz Qüvvələrinə (HDQ) tanışlıq səfəri təşkil olunub.*



14 dövləti təmsil edən 20-dən çox hərbi attaşelik aparatının nümayəndələrinə HDQ barədə brifinq təqdim edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Eyni zamanda qonaqlar hərbi hissənin qərargahı, silahlanmasındakı hərbi texnikası, şəxsi heyətin yerləşmə şəraiti, inzibati binaları, əsgər yeməkxanası və digər obyektləri ilə tanış olublar.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ermənistan rəhbərliyinin bəyanatları bu ölkənin nəticələrə yönəlmiş müzakirələrdə iştirak etmək niyyətində olmadığını göstərir

*Noyabrın 10-da ATƏT-in Minsk Qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun rəhbəri təşkilatın Daimi Şurasına bir illik fəaliyyətləri ilə bağlı hesabat təqdim ediblər.*

Müzakirələrdə çıxış edən Azərbaycan Respublikasının ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini diqqətə çatdırıb. Azərbaycan tərəfinin bəyanatında qeyd edilib ki, Azərbaycan münaqişənin həlli ilə bağlı Vyana və Sankt-Peterburq görüşlərində əldə edilmiş müsbət dinamikanın qorunub saxlanmasının vacibliyinə inanır. Bu xüsusda fəaliyyətdə olan sədrin şəxsi nümayəndəsinin ofisinin genişlənməsinə hazırdır və hesab edir ki, bu genişlənmə ofisin mandatını və fəaliyyət qaydalarını dəyişməməli, mövcud status-kvonun dəyişdirilməsi məqsədilə substantiv danışıqlarla sinxronlaşdırılmalıdır.

Daha sonra bəyanatda bildirilir ki, Ermənistana səfər edən yüksək səviyyəli şəxslərdən narahatlıq doğuracaq siqnallar gəlməkdədir. Ermənistan rəhbərliyinin verdiyi bəyanatlar bu ölkənin nəticələrə yönəlmiş müzakirələrdə iştirak etmək niyyətində olmadığını göstərir. Məzmunlu danışıqların inkişaf etdirmək əvəzinə, Ermənistan tərəfi açıq-aşkar Vyana və Sankt-Peterburq razılaşmalarını və sülh prosesini pozmaq məqsədi güdür. Bu xüsusda Ermənistanın işğal edilmiş ərazilərdə qanunsuz hərbi təlimlər keçirdiyi vurğulanıb, eləcə də həmin ərazilərdə qanunsuz iqtisadi və digər fəaliyyəti diqqətə çatdırılıb. Bütün bu təxribat xarakterli fəaliyyətin Ermənistanın əsl



niyyətinin qəbuledilməz status-kvonu davam etdirməkdən ibarət olduğunu göstərdiyi vurğulanıb. Təəssüflə bildirilib ki, Ermənistanın danışıqlar prosesinin pozulmasına yönəlmiş bu mövqeyi pislənilmir və Ermənistan bunu öz fəaliyyəti üçün həvəsləndirmə kimi qəbul edir.

Buna görə də Azərbaycan tərəfi ATƏT-in Minsk Qrupunun həmsədrlərini və iştirakçı dövlətlərini Vyana və Sankt-Peterburqda əldə edilmiş razılaşmaları tam şəkildə icra etməsi üçün Ermənistana təzyiq göstərməyə çağırıb. Daimi nümayəndəlik bəyan edib ki, qeyd edilən çətinliklərə baxmayaraq, Azərbaycan münaqişənin ağır nəticələrinin aradan qaldırılmasına imkan verən siyasi həllin tapılmasında ən maraqlı tərəfdir. Azərbaycan son 25 ildə ona qarşı törədilmiş ədalətsizliyin sülh yolu ilə aradan qaldırılmasını gözləyir və danışıqların nəticə verəcəyinə hələ ümid edir.

Bəyanatda qəti şəkildə vurğulanıb ki, münaqişə yalnız Azərbaycan Respublikasının suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıq mövzusu və ya kompromis elementi olmayıb və olmayacaq.

Azərbaycan ümid edir ki, həmsədr ölkələrin səyləri ilə keçirilmiş son yüksək səviyyəli görüşlərdə əldə edilmiş müsbət dinamika qorunub saxlanılacaq və status-kvonun dəyişdirilməsi istiqamətində praktik addımlara çevriləcək.

**AZƏRTAC**

# Dövlət Bayrağı Günü Silahlı Qüvvələrdə təntənəli qeyd edilib

*9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Müdafiə nazirinin göstərişinə əsasən, bayramla əlaqədar təsdiq olunmuş plan üzrə tarixçi alimlərin, millət vəkillərinin və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə dəyirmi masalar, veteranların hərbi hissələrə səfərləri, muzey və abidələrə ekskursiyalar təşkil edilib, eləcə də müxtəlif bayram konsertləri, viktorinalar, mədəni-kütləvi vətənpərvərlik və idman tədbirləri keçirilib.*





Dövlət Bayrağı Günü münasibəti ilə C.Naxçıvanski adına Hərbi Liseydə təntənəli mərasim keçirildi. Tədbiri polkovnik-leytenant Kamran Nəsibov açdı. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Zabit Kamran Nəsibov çıxış edərək Dövlət Bayrağı Gününün önəmindən danışdı:

- Təqvimimizdə bayramlar çoxdur. Bunların sırasında Dövlət Bayrağı Gününün öz yeri, öz ovqatı var. Bayrağımız hər birimiz üçün müqəddəsdir. Bildiyiniz kimi, Bayraq dövlət rəmzlərindən biridir. İndi başımızın üzərində əzəmətlə dalğalanan bayrağa böyük ehtiram göstəririk. Üçrəngli, ay-ulduzlu bayrağımızın yaranma tarixi ötən əsrin əvvəllərinə qədər gedib çıxır. Dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və təntənə ilə qaldırılmışdır.

Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi hamımızın yaxşı tanıdığı, görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.



Təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa oldu, cəmi 23 ay yaşadı. Bolşevik işğalı nəticəsində cümhuryyət süqut etdi. 1920-ci ilin aprel işğalından sonra üçrəngli bayrağımız Azərbaycan SSR-in qırmızı rəngli oraq-çəkicli bayrağı ilə əvəzləndi.

70 ildən sonra SSRİ adlanan dövlət özü də süquta uğradı. Əsrin əvvəllərində itirilmiş müstəqilliyimizin bərpası üçün tarixi şərait yetişdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Bu tarixi günü hamımız böyük sevinc və qürurla, həmçinin Ulu Öndərə böyük ehtiramla xatırlayırıq. Ulu öndər Heydər Əliyevin bu tarixi addımından dörd ay sonra - 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə hazırkı üçrəngli və ay-ulduzlu bayraq müstəqil respublikanın dövlət bayrağı elan edildi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur. 2010-cu il sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl qəsəbəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı oldu.

Bu gün üçrəngli bayrağımız dünyanın ən nüfuzlu dövlətlərinin bayraqları ilə yanaşı əzəmətlə dalğalanır.

Tədbir iştirakçıları "Dövlət Bayrağı Günü" adlı qısametrajlı sənədli filmə baxdılar.

Liseyin kursantları tərəfindən Dövlət Bayrağı Günü ilə əlaqədar olaraq hazırlanmış ədəbi-bədii kompozisiya salondakıların marağına səbəb oldu. Onlar qəhrəmanlığı, igidliyi və üçrəngli bayrağımızı tərənnüm edən şeirlər söylədilər, mahnılar oxudular.

Tədbirin sonunda kursantlar alqış sədaları altında üçrəngli bayrağımızı başlarının üstündə səhnəyə gətirdilər. Dövlət Bayrağı Günü münasibəti ilə keçirilən tədbir elə alqış sədaları ilə də başa çatdı.



* * *

Azərbaycan Hərb Tarixi Muzeyində də Dövlət Bayrağı Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, ayrı-ayrı təhsil müəssisələrində çalışan elm adamları, Qarabağ müharibəsi veteranları, ehtiyatda və istefada olan hərbçilər, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Mərasim xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin yad edilməsi ilə açıq elan olundu.



Azərbaycanın Dövlət himni səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" adlı tədbirdə çıxış edərək bildirdi ki, tariximizin ən dəyərli eksponatları sırasında yer alan qədim dövlət rəmzləri və bayraqlar Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar verir. Müasir dövrümüzdə isə bayraq xalqın müstəqillik, suverenlik və milli azadlıq ideyalarını özündə simvolizə edən rəmz olduğunu xatırlatdı. Dövlətimizin rəmzi olan üçrəngli bayrağımızın isə 1918-ci ildə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldıldığını bildirdi. Natiq bayrağın üzərində olan rənglərin türkçülüyü, müasirliyi və islamı özündə əks etdirdiyini söylədi.

"Dirçəliş günü - Milli azadlıq mübarizəsinin başlanğıcı" adlı məruzə ilə muzeyin elmi işçisi Vahid İsmayılov çıxış etdi. O, ötən əsrin səksəninci illərinin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və buna qarşı baş qaldıran xalq hərəkatı barədə danışdı. Milli azadlıq hərəkatının başlandığı dövr xalqımızın dirçəliş tarixini elmi əsaslarla qeyd etdi.

Muzeyin ekspozisiya hissəsinin rəisi Şəlalə Hüseynova, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun aparıcı mütəxəssisi Vidadi Rzayev tədbirdə çıxış etdilər.

Tədbrin sonunda "Müstəqilliyimizin üç rəngi" adlı sənədli flim nümayiş etdirildi. Xətai rayon Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının çıxışı ilə bayram tədbiri sona yetdi.

**"Azərbaycan Ordusu"**

# “Bayrağım - varlığım, bəxtiyarlığım”

## Bayraq həftəsində “Bir bayraq altında” devizi ilə hərbi vətənpərvərlik tədbiri keçirilib

Xocavənddə ilin-günün bu vaxtı yaz havasıdı; sərin-sərin əsən meh, yarpaqdan-yarpağa, budaqdan-budağa tələsir elə bil. Tələsə-tələsə budaqlardan yarpaqlar üzüb, yola düzür. Budağından üzülən yarpaq torpağa sığınır. Yarpaqla torpağın bu ünsiyyətini görüncə tədbirə tələsənlərdən ayaq saxlayan da olur, ötüb keçən də. Ayaq saxlayan da, ötüb-keçən də gözucu budaqlarda titrəşən yarpaqlara baxır. Səngərləri xatırlayır, səngərdəki əsgərlərimizi xatırlayır. Ağacı da, budaqlarda titrəşən yarpaqları da, yarpaqla torpağın ünsiyyətinə ayaq saxlayanları da, ötüb-keçənləri də qoruyan, düşüncələrimin səmtini özünə çəkən əsgərlərimizi...



Şəhərin Bayraq meydanında göylərin səmavi gözlərini də özünə çəkən Bayrağımıza can atanların sırasındayam. Bayrağımızın bayramıdı - Bayraq günüdü. Bir azdan Müdafiə Nazirliyi və Xocavənd rayon İcra Hakimyyətinin birgə təşkilatçılığı ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, "Bayrağım - varlığım, bəxtiyarlığım" devizi ilə keçirilən bayraq həftəsinin növbəti mərhələsi “Bir bayraq altında” formatında başlayacaq...

Bayraq Gününə bayraqla gələn yeniyetmələr də, özünü ağacların budaqlarına çırpan küləyi yarıb keçən gənclər də, murazlılar da, gözləri yollarda qalanlar da, bir ömürlük həsrəti gözlərinə yığanlar da, oğul əvəzi köksünə bayraq sıxanlar



da,... əzəmətlə dalğalanan Bayrağımızın qənşərinə tələsir. Meydana yaxınlaşdıqca az qala tədbirə gələnlərin sayı qədər bayraq görürəm. Azyaşlı uşaqların əllərində dalğalanan kiçik ölçülü bayraqlar Vətənə ad olan fidan sevgilərdi. Bu yaşda uşaqların bu biçim bayraq sevgisinə necə sevinməyəsən?! Bu sevgidən necə qürurlanmayasan?! Bugünkü tədbir həm də onların yaşarı sevgisi üçündü...

Ssenari də, rejissura da "Bir bayraq altında" qayəsini təmin edir: zamanında xanlıqlar "Azərbaycan" demədi, "Mən" dedi - birləşmədilər. Bu tədbir onların rəmzi birliyini - birləşməsini təmin edir. Tədbir əhalinin, millət vəkillərinin, tələbələrin, ümumən cəmiyyətin müxtəlif zümrələrini birləşdirmə məramı kimi yaşanılır...

...Səhnədə dayanan, meydan boyu düzülən əsgərlərin baxışlarını gözlərinə, gözlərindən könlünə köçürən ağsaqqalın dediyi kəlmələri "Bayrağım - varlığım, bəxtiyarlığım" deyənlərin ömür düsturu bilirəm...

Tədbirin ssenari müəllifi də, rejissoru da Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbanidi. Aparıcı (Abdulla Qurbani) tarixən mövcud olmuş dövlətlərimizin bayraqlarından danışır, müasir Azərbaycanın dövlət bayrağının yaranmasından söz açır. Həm də fikirlərini olduqca duyğusal bədii mətnlərlə bildirir.

Ötən il Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla "Ordu xalqın, xalq ordunun dayağı" devizi ilə kütləvi vətənpərvərlik tədbiri keçirilmişdi. Həmin tədbirin mahiyyətini tərəddüdsüz Xocavənd rayonuna şamil etmək olar; əvvəllər də, aprel döyüşlərində də (indi də!) xocavəndlilər əsgərlərlə nəfəs-nəfəsədi (bu anlarda bir ağsaqqalın dedikləri diqqətimi çəkir: "Xocavənddə şəhidi olmayan ailə yoxdu..."). Aparıcı bu məqamı tədbir iştirakçılarının nəzərinə böyük sayğılarla çatdırır. Rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov belə bir möhtəşəm tədbirin Xocavənddə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirir, torpaqlarımızın yaxın vaxtlarda işğaldan azad ediləcəyinə, növbəti Bayraq Gününün həmin ərazilərdə də keçiriləcəyinə əmin olduğunu deyir. "Bunun üçün əli silaha yatan hər bir xocavəndli Ali Baş Komandanın əmrinə hazırdır!" - fikri bütün xocavəndlilərin adından səslənir elə bil...

General-mayor Mais Bərxudarov yüksək döyüş hazırlığına malik şəxsi heyətin Ali Baş Komandanın, Müdafiə nazirinin bütün əmr və göstərişlərini bundan sonra da böyük məsuliyyətlə yerinə yetirəcəyinə əminliyini bildirərək qeyd edir ki, aprel döyüşləri xalqa böyük sevinc yaşatdı. “Xalq inandı ki, ordusu torpaqları işğaldan azad etməyə qadirdir. Silahlı Qüvvələrimiz yaxın vaxtlarda xalqa Böyük Qələbənin də sevincini yaşadacaq. Bayraq Gününü Şuşada, Ağdamda, Qubadlıda, ümumən işğaldan azad edəcəyimiz torpaqlarda da keçirəcəyik...”

Bu möhtəşəm inam meydanı coşdurur. O qədər səmimi, o qədər doğma coşqudur ki! Bu coşqunu görənlərin, yaşayanların baxışlarından sezdiklərim bir həqiqətin təsdiqidi: xalq ordusuna inanır, güvənir. Bayraq Günü bu inam, bu güvənc daha duyğusaldı, daha dönməzdi. Diqqətimi beş-altı addım aralıda birinin əli digərinin əlində isinən 12-13 yeniyetmə, başları üzərində 12-13 bayraq çəkir. "Dövlətim!" deyirlər, "Bayrağım!" deyirlər. Abdulla Qurbaninin ssenarisi və rejissurası ilə keçirilən tədbirin mahiyyəti yeniyetmələrin düşüncələrini kükrədir, ruhunun qanadına dönür; göy üzünə yayılmış Bayrağımızın qüdrətinin daşıyıcısıdı hər biri...

Bir qədər aralıda dayanmış ağsaqqalların baxışlarında sezilməsi çətin olmayan bir şükranlıq uçunmaqdadı; göy üzündə qürurla dalğalanan Bayrağımız. "Bayrağım - varlığım, bəxtiyarlığım" deyənlərin, bu Bayrağın əzəmətinə qürurla baxanların, arada dönüb çox da uzaqda olmayan səngərlərə sarı boylananların könül rahatlığıdı. Tədbir ağsaqqallara, ağsaqqalların timsalında xocavəndlilərə, Xocavəndin timsalında məmləkətə dönməz bir inam yaşadır: torpaqlarımız işğaldan azad ediləcək! Həm də yaxın vaxtlarda!..

Bayraq günündə "Bayrağım - varlığım, bəxtiyarlığım" nələrə qadirmiş, İlahi! "Bayrağım - varlığım, bəxtiyarlığım" hər ürəkdə bir bayrağa dönüb. Ürəklərdə dikələn bayraqlar bir istəyin, bir amalın bayrağıdı: torpaqlarımız işğaldan azad edilməlidi. Hamı meydan boyunca düzülmüş əsgərlərə baxır, ürəyində o əsgərlərin timsalında Azərbaycan əsgərinə müraciət eləyir: "Bayrağımızı uzaq düşdüyü torpaqlarda da sən dalğalandıracaqsan, əsgər qardaşım!.."...

...Əlil ağacına dirsəklənmiş orta yaşlı kişinin pıçıltısı eşidiləndi: "Döyüş olarsa, əsgərlərimizin sırasına qarışmağa gücüm çatar..."...

...Aprel döyüşlərində ikinci qrup Qarabağ müharibəsi əlili Sahib Aslanovu hərbi komissarlığın qarşısında görmüşdüm. Qətiyyətliydilər, döyüşənlərin yanında olmaq istəyirdilər; xalq ordusunun dayağıdı axı!



Tədbirdə gördüyüm kişi bəlkə də hər gün ön xətdə yaxın ərazilərə gedir.

Meydan boyu düzülmüş əsgərlərin yaxınlığında dayanmış kişi yanındakı uşağı bayraq qarışıq başı üzərinə qaldırıb: "Oğlumun yolunu davam etdirməyə nəvəmin yaşı çatmır. Onun əvəzinə mən gedəcəm!.."...

Şəhid atasıdı. Tədbirə hərbi səhra geyimli nəvəsiylə gəlib. Gəlib ki, nəvəsi atasının hansı amal uğrunda şəhid olduğunu bir daha dərk eləsin; zamanında atasının sevdiyi bayrağı daha dəruni sevgilərlə sevsin, o da Bayrağımızı varlığı bilsin, o da bayrağımızı bəxtiyarlığı bilsin. Gətirib ki, zamanında atasının dayandığı səngərdə dayananları - torpaqlarımızı işğaldan azad edəcək əsgərlərimizi yaxından görsün, tanısın...

...Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistlərinin oxumaları, rəqsləri Bayraq Günündə bənzərsiz könül xoşluğuna dönür; hər mahnı bir mətləbin söz-musiqi təqdimi olsa da, hamısı vəhdətdə Vətən sevgisinin duyğu çələngidi. Nigar Rəhimovanın oxuduğu "Qarabağ şikəstəsi" pərdə-pərdə göy üzünə yayılır...

Azərbaycan İqtisad Universitetinin professoru, millət vəkili Xanhüseyn Kazımlı, hüquq üzrə fəlsəfə doktoru Mikayıl Zeynalov, bir qrup tələbə - Universitetin "UNEC" Yaradıcılıq Mərkəzinin üzvləri də tədbirdədi. Cümşüd Kərimlinin ifasında "Torpağın səsi" mahnısı səslənincə Meydana gözlənilməz bir səssizlik çökür. Səngərlərin o üzündə qalan torpaqlarımızın səsidi "Torpağın səsi". "Torpağın səsi" ürək-ürək gəzişir. Bu səs Bayrağımızı çağırır, Bayrağımızı haraylayır: "Sənsizlik bizi güllə, mərmi yaralarından da betər incidir...". Bu dönməz harayı İqbal Bayramlının ifasında "Bayrağım" şeirinin qədərsiz coşqusu tamamlayır...

Yüksək rejissura ayrı-ayrı detallarla tədbirin mahiyyətinin açılmasını təmin edir, "Bayrağım - varlığım, bəxtiyarlığım"ın mahiyyətinin dərkini asanlaşdırır.

Bayraq Günündə xalqın istəyi bayraqlaşıb. Bir əmr, bircə əmr kifayətdi ki, hamı Azərbaycan əsgərinin öncüllüyüylə Böyük Qələbəyə yol alan Bayrağımızın izinə düşsün...

...Sərin-sərin meh əsir. Ucalıqda dalğalanan Bayrağımız səngərlərdən də aydınlığıyla görünür; Bayrağımız Azərbaycan əsgərinin qələbə əzmini səngər-səngər dikəldir. "Bayrağım - varlığım, bəxtiyarlığım" kəlmələri də göy üzünün yaraşığı olan Bayrağımızın əzəmətli, gözdoyuran, könül açan titrəyişinə sarılıb. "Cəngi" səslənir...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xarkovda Azərbaycanın Milli Qəhrəmanı Ruslan Polovinkaya xatirə lövhəsi qoyulub

*Noyabrın 8-də Ukraynanın Xarkov vilayətində Azərbaycanın Milli Qəhrəmanı Ruslan Polovinkanın xatirə lövhəsinin açılış mərasimi olub. Təntənəli mərasim "Dostluq" adlı Azərbaycan-Ukrayna Dostluq Cəmiyyətinin təşəbbüsü ilə vilayətin Zmiyev şəhərində Milli Qəhrəmanın təhsil aldığı 1 nömrəli liseydə keçirilib.*

Xatirə lövhəsinin müəllifi "Dostluq" Cəmiyyəti İdarə Heyətinin üzvü, Ukraynanın Xalq Rəssamı, Xarkov vilayətinin fəxri vətəndaşı Seyfəddin Qurbanovdur.

Təntənəli tədbir Ukrayna və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Liseyin şagirdləri və qonaqlar qəhrəmanın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra Zmiyev rayon administrasiyası aparatının rəhbəri Larisa Yakovleva, "Dostluq" Cəmiyyətinin sədri Murad Ömərov, Azərbaycanın Ukraynadakı səfirliyinin müşaviri Elman Bağırov çıxış ediblər.

Tədbirdə, həmçinin Ruslan Polovinkanın valideynləri - Aleksandr Qriqoriyeviç və Qalina İvanovna, Kiyev Milli Aviasiya Universitetinin professoru, hüquq elmləri doktoru Arif Quliyev, hərbi müxbir, Ukraynanın Əməkdar jurnalisti Nikolay Şlapak, Ruslan Polovinkanın sinif rəhbəri



Zoya Şevçenko, Azərbaycandan olan ictimai xadim, şair, yazıçı və tərcüməçi Ağacəfər Həsənov, Zmiyev Rayon Şurasının katibi Viktoriya Bayraçnaya çıxış ediblər.

Xatirə lövhəsinin açılışından sonra keçirilən mərasimdə M.Ömərov Milli Qəhrəmanın igidliyi barədə ətraflı məlumat verib. Daha sonra "Dostluq" Cəmiyyəti və Xarkov vilayət televiziyasının birlikdə çəkdiyi R.Polovinka həsr olunan film nümayiş olunub.

Ruslan Polovinka 1969-cu il oktyabrın 21-də Xarkov vilayətinin Zmiyev şəhərində anadan olub. 1987-ci ildə Sızran Ali Hərbi Aviasiya Məktəbinə daxil olub və 1991-ci ildə məktəbi bitirdikdən sonra Naxçıvanda xidmətə göndərilib. Azərbaycan Hərbi Hava Qüvvələri yaradıldıqdan sonra o, xidmətini Bakıda, helikopter eskadrilyasında davam etdirib. 1991-ci ildə Qarabağ müharibəsinin hərbi əməliyyatlarında uğurla iştirak edib. 1992-ci il avqustun 6-da Azərbaycan qoşunlarının yüksəkliklərin birində mühasirəyə düşməsi barədə məlumat alan "Mi-24" helikopterinin ekipajı - Zakir Məcidov (komandir), Ruslan Polovinka və Cavanşir Rəhimov döyüş zonasına yola düşüb. Üç uçuş həyata keçirən helikopter düşmənin zirehli texnikası və canlı qüvvəsini tamamilə məhv edib. Ekipaj həlak olan və yaralı döyüşçülərimizi döyüş meydanından çıxarıb. Dördüncü uçuş zamanı helikopter düşmən tərəfindən atılan raketlə vurulub.

Azərbaycan Prezidentinin 1992-ci il 14 sentyabr tarixli Fərmanı ilə leytenant Ruslan Aleksandroviç Polovinka (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. O, doğma Zmiyev şəhərində dəfn olunub.

Hər il Ruslan Polovinkanın anım günündə qədirbilən azərbaycanlılar Milli Qəhrəmanın ailəsinə baş çəkir, məzarı üzərinə gül dəstələri qoyurlar.

**AZƏRTAC**

# Təhsildə fərqlənən kursantlar mükafatlandırıldı

*Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası uzun illərdir C.Naxçıvanski adına Hərbi Liseylə əməkdaşlıq edir. Təhsil ocağında AHİK hərbi vətənpərvərlik mövzusunda yaddaqalan silsilə tədbirlər keçirir. Belə tədbirlərdən biri də 2015-2016-cı təhsil ilində fərqlənən kursantlara pul mükafatı və diplom təqdim edilməsi oldu.*



Bununla əlaqədar olaraq C.Naxçıvanski adına Hərbi Liseydə təntənəli mərasim keçirildi. Polkovnik-leytenant Kamran Nəsibov Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası ilə Hərbi lisey arasındakı sıx əməkdaşlıqdan, qarşılıqlı xoş münasibətlərdən danışdı.

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının mütəxəssisi Xoşqədəm Bağırova dedi:

- Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası ilə C.Naxçıvanski adına Hərbi Lisey arasında 2000-ci ildən sıx əməkdaşlıq davam edir. Konfederasiyanın sədri, millət vəkili Səttar Mehbalıyevin təşəbbüsü ilə təhsil ocağında hərbi vətənpərvərlik mövzusunda müxtəlif yönümlü tədbirlər keçirilir. Artıq neçə ildir ki, biz həmkarlar təşkilatı olaraq gənclərin hərbi sahəyə marağını daha da artırmaq məqsədi ilə təhsildə yüksək nəticə göstərən kursantlara pul mükafatı və diplomlar təqdim edirik. "Bu gün də o ənənə davam edir. Konfederasiya rəhbərliyinin təşəbbüsü ilə bu gün təhsildə fərqlənən 26 kursanta pul mükafatı ayrılıb. Kursantlar ordumuzun gələcək zabitləridirlər. Mən onlara gələcək xidmətlərində uğurlar arzulayıram."

Kursantlara mükafatları Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının mütəxəssisi Xoşqədəm Bağırova, polkovnik-leytenant Kamran Nəsibov və C.Naxçıvanski adına Hərbi Liseyin həmkarlar ittifaqı komitəsinin sədri Sahib Əsədov təqdim etdilər.

Təhsillərini yüksək qiymətləndirdiklərinə görə kursantlar Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Xəbərlər: hadisələr, faktlar

## Əfqanıstanda 7 nəfərlik ailə minaya düşüb



Əfqanıstanın cənubunda 7 nəfərdən ibarət ailə, o cümlədən 3 uşaq yol kənarına döşənmiş minaya düşərək həlak olub.

Faciə Qəndəhar əyalətinin bələdiyyələrinin birində ailənin avtomobillə toy mərasimindən evlərinə qayıtdığı zaman baş verib.

Xatırladaq ki, son zamanlar Əfqanıstanda vəziyyət xeyli gərginləşib. Bəzi kənd rayonlarında geniş əraziləri ələ keçirən "Taliban" böyük şəhərlər istiqamətində hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşmasının təsiri də artmaqdadır.

## Türkiyədə terror aktı: 4 nəfər ölüb, 2 mülki şəxs yaralanıb



Türkiyənin Van vilayətinin Başkale rayonunda silahlılar içərisində təhlükəsizlik əməkdaşları olan mikroavtobusu atəşə tutublar.

İnsident nəticəsində 3 təhlükəsizlik işçisi və 1 mülki vətəndaş olmaqla 4 nəfər ölüb, 2 mülki şəxs yaralanıb.

Yaralılar xəstəxanaya yerləşdiriliblər.

Terrorçuların tutulması üçün bölgədə antiterror əməliyyat başlayıb.

## Yekaterinburqda zavodda damın çökməsi nəticəsində 4 nəfər ölüb



Rusiyanın Yekaterinburq şəhərindəki Kalinin adına zavodda damın uçması nəticəsində dörd nəfər ölüb, 14 adam yaralanıb.

"Almaz-Antey" ASC-nin tərkibinə daxil olan Kalinin adına zavodun damı təxminən 800 kvadratmetr sahədə çöküb. Hadisə ilə bağlı "təhlükəsizlik qaydalarının pozulması" faktı ilə cinayət işi başlanılıb.

## Donald Tramp ABŞ Prezidenti seçilib



ABŞ-da keçirilən Prezident seçkiləri Respublikaçılar partiyasının namizədi Donald Trampın qələbəsi ilə başa çatıb.

Donald Tramp son olaraq Viskonsin ştatında da qalib gələrək seçənlər kollegiyasının bu ştat üzrə 10 səsini alıb. Bununla da Donald Tramp ABŞ-ın 45-ci Prezidenti seçilib.

Yeni Prezident qələbədən sonra Nyu-Yorkda tərəfdarları ilə görüşdə çıxış edərkən bildirib: "Dünyanın ən güclü iqtisadiyyatına sahib olacağıq. Eyni zamanda, bütün xalqlarla mehriban münasibətləri davam etdirəcəyik".

1946-cı ildə Nyu-Yorkda anadan olan Donald Tramp ABŞ tarixində ən yaşlı Prezident olacaq. "Forbes" jurnalının 2016-cı ildə "Dünyanın ən zəngin 400 insanı" siyahısında yer alan Donald Trampın sərvətinin 3,6 milyard dollar dəyərində olduğu təxmin edilir.

## Hava şəraiti ilə əlaqədar Moskvada 100-ə yaxın aviareys təxirə salınıb



Qarlı hava şəraiti ilə əlaqədar Moskvada 100-ə yaxın aviareys təxirə salınıb.

Qarlı hava şəraiti səbəbindən 100-ə yaxın aviareys təxirə salınıb. Bunlardan 6-sı "Domodedovo" aeroportundan 88-i isə "Şeremetyevo" aeroportundan həyata keçirilməli idi. Bundan əlavə 20-yə yaxın təyyarə hava şəraiti ilə əlaqədar vaxtından gec yola salınıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş voleybol turniri başa çatdı

*Xəbər verdiyimiz kimi Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı kapitan Mətləb Quliyevin xatirəsinə həsr olunmuş ənənəvi voleybol turniri keçirilib. Yarışda 9 komanda iştirak edirdi.*



Azərbaycanın Milli Qəhrəmanı kapitan Mətləb Quliyevin xatirəsinə həsr olunmuş voleybol turnirinin final mərhələsi yaddaqalan oldu. Son yarış başlamazdan əvvəl ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov final mərhələsində iştirak edəcək şəxsi heyətlə salamlaşdı. Onlara gərgin mübarizədə uğurlar arzuladı. Bildirdi ki, idmançılar iştirakçısı olduqları bu xatirə turnirini daim xoş təəssüratlarla xatırlayacaqlar. "Təhsil ocağında ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi həmişə əziz tutulur. Milli Qəhrəmanların xatirəsinə həsr olunmuş müxtəlif idman yarışları keçirilir. Bu, bizim şəhidlərə olan ehtiram və hörmətimizin bariz ifadəsidir."

Hakimin fitindən sonra final qarşılaşması başlandı. Finalda 7-ci və 3-cü bölüklərin voleybolçuları qarşılaşırdı. İdmançılar cəld və çevik hərəkətlər edərək komandalarını irəli çıxarmağa çalışırdılar. Azarkeşlər isə komanda yoldaşlarını ruhlandırmaq üçün onları alqışlayırdılar.

Nəhayət, hakimin voleybol turnirinin başa çatmasını bildirən fiti səsləndi. 7-ci bölüyün komandası daha yaxşı oyun nümayiş etdirərək rəqibini üstələməyi bacardı. Beləliklə, 1-ci yerə 7-ci bölüyün, 2-ci yerə 3-cü bölüyün, 3-cü yerə isə 8-ci bölüyün idmançıları çıxdılar. Polkovnik Rüfət Əmirov ilk üç yerə yüksəlmiş komanda üzvlərinə fəxri fərman və mükafatlar təqdim etdi. Yarışın keçici kuboku 7-ci bölüyün kapitanı kursant Amil Əliyevə verildi. Kursant Amil Əliyev həmçinin yarışın ən yaxşı oyunçusu seçildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Hərbi yeniliklər, ənənələr



## Radioelektron mübarizə sistemləri

Müasir ordu rabitə, idarəetmə və radioelektron sistemləri olmadan fəaliyyət göstərə bilməz. Onlar içərisində daha geniş yayılanı və xüsusi əhəmiyyət daşıyanı radioelektron mübarizə vasitələridir.

Onlardan biri "Krasuxa-4" radioelektron mübarizə kompleksidir. Bu sistem avtomobil üzərində hazırlanıb və düşmən aviasiyasının bort radiolokasiya sisteminə qarşı durmağa qadirdir. Bu xüsusiyyətinə görə "Krasuxa-4" sistemiylə düşmənin aviasiya hücumundan stasionar obyektlərin qorunması üzrə tapşırıqları yerinə yetirmək olar. Məlumata görə, kompleksin tərkibinə vacib olan bütün cihazlanmanı quraşdırmaq üçün iki "KamAZ" maşın daxildir. Maşının biri teleskopik dirəklə, o birisi isə antena bloku ilə təchiz edilib. Kompleksin tərkibində rəqəmli elektronikadan istifadə edilir. "Krasuxa-4" kompleksinin bütün xüsusiyyətləri məxfi saxlanır. İndiyə qədər onlarla belə kompleks hazırlanıb.

Daha bir kompleks "Rtut-BM"-dir ki, qoşunları düşmənin artilleriyasının hücumundan qorumaq üçün nəzərdə tutulub. Radioelektron mübarizə sistemi xüsusi cihaz dəsti ilə də təchiz olunub. Onun əsas vəzifəsi düşmənin radiopartlayıcı döyüş sursatlarını sıradan çıxarda və lazım gəlsə, onunla rabitə kanallarını da məhv edə bilər. Mövqelərdə 10 dəqiqə ərzində quraşdırılır. Altı saat ərzində fasiləsiz işləyir. Maşınlardan biri 20-50 hektar ərazidə qoşunları qoruya bilər. Eyni vaxtda altı rabitə kanalını məhv etməyə qadirdir.



"İnfaun" radioelektron mübarizə sistemi K1Ş1 əsasında hazırlanır, əsas kimi 3TR-80 zirehli transportyorundan istifadə edilir. Maşının zirehli gövdəsində cihazlanma və idarəetmə sistemi quraşdırılıb. Çöl hissəsində isə xüsusi aqreqat dəsti quraşdırlıb. Daha çox gözə çarpanı isə teleskopik dirəkdə antena qurğusunun qaldırılmasıdır. Kompleksin əsas vəzifəsi düşmənin rabitə kanallarını aşkar edərək sıradan çıxartmaqdır. Həmçinin qoşunları düşmənin radioidarəolunan partlayıcı qurğularından qorumaqdır. Hazırda müxtəlif döyüş tapşırıqlarını yerinə yetirmək üçün çoxlu sayda belə mübarizə sistemləri qoşunların tərkibinə daxil edilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" klubunun futbolçusu Albaniya yığmasına dəvət olunub



Ağdamın "Qarabağ" klubunun futbolçusu Albaniya yığmasına dəvət olunub.

2018-ci il dünya çempionatının seçmə mərhələsi çərçivəsində İsraillə qarşılaşacaq Albaniya millisinin baş məşqçisi Covanni De Byazi 27 futbolçuya dəvət göndərib. Onlardan biri də "Qarabağ"ın müdafiəçisi Ansi Aqollidir.

Ağdam klubunun üzvü noyabrın 12-də doğma meydanda keçiriləcək oyunda İsrailə qarşı forma geyinə bilər.

## Naxçıvanda gənclər arasında karate üzrə beynəlxalq turnir keçiriləcək



Noyabrın 15-də Naxçıvan Muxtar Respublikasının (NMR) Şərur şəhərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş beynəlxalq karate turniri təşkil ediləcək.

Gənclər və İdman Nazirliyi, Naxçıvan MR-nın Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Karate Federasiyası (AMKF) və Naxçıvan MR-nın Karate-do Federasiyasının birgə təşkilatçılığı ilə baş tutacaq turnir Şərur Olimpiya İdman Kompleksində keçiriləcək. Turnirə qatılacaq 10-17 yaşlı uşaqlar, yeniyetmə və gənclər kata və kumite üzrə yarışlarda qüvvələrini sınayacaqlar.

## Basketbol üzrə milli komandamız beynəlxalq turniri gümüş medalla başa vurub



Aşqabadda qadınlar arasında basketbolun 3x3 növü üzrə beynəlxalq turnir keçirilib. Turnirdə milli komandamız da çıxış edib.

Yarışda yığmamızdan başqa, Rusiya, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan komandaları da medallar uğrunda mübarizə aparıblar.

Basketbolçularımız qrup mərhələsində yaxşı nəticə göstərərək yarımfinala yüksəliblər. Bu mərhələdə millimiz özbəkistanlı rəqiblərini 10:8 hesabı ilə məğlub ediblər.

Finalda millimiz Türkmənistan yığması ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən oyunda qızlarımız cəmi iki top fərqi ilə rəqibə uduzaraq (19:21) turniri gümüş medalla başa vurublar.

## Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb



Beynəlxalq Cüdo Federasiyasının yeni reytinq cədvəli Azərbaycan cüdoçuları üçün uğurlu olub.

Rio Olimpiadasının mükafatçıları Rüstəm Orucov (73 kq) və Elmar Qasımov (100 kq) öz çəki dərəcələrində bütün rəqiblərini qabaqlayaraq reytinq cədvəlinə başçılıq edirlər.

Sonuncu Avropa çempionatının gümüş medalçısı Orxan Səfərov (60 kq) ikinci yeri tutur. Əbu-Dabi "Böyük Dəbilqə" turnirinin qalibi, dünya çempionu Elxan Məmmədov (100 kq) mövqeyini daha da yaxşılaşdıraraq, yeddinci sıraya yüksəlib.

Digər cüdoçularımızdan Nicat Şıxəlizadə 7-ci, İlqar Müşkiyev 13-cü, Məmmədəli Mehdiyev və Uşanqi Kokauri 20-ci yerdə qərarlaşıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 563
Nüsxə 4650